

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 96 (23.508)

*20 iyun 2020-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikasının Babək rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 3-cü bəndinə uyğun olaraq **qərara alır:**

Naxçıvan Muxtar Respublikasının Babək rayonunun inzibati ərazi bölgüsündə aşağıdakı dəyişikliklər edilsin:

1. Babək qəsəbə inzibati ərazi dairəsi tərkibindəki Babək qəsəbəsinə şəhər statusu verilsin, Babək qəsəbə inzibati ərazi dairəsi Babək şəhər inzibati ərazi dairəsi hesab edilsin.

2. Cəhri kənd inzibati ərazi dairəsi tərkibindəki Cəhri kəndinə qəsəbə statusu verilsin, Cəhri kənd inzibati ərazi dairəsi Cəhri qəsəbə inzibati ərazi dairəsi hesab edilsin.

3. Nehrəm kənd inzibati ərazi dairəsi tərkibindəki Nehrəm kəndinə qəsəbə statusu verilsin, Nehrəm kənd inzibati ərazi dairəsi Nehrəm qəsəbə inzibati ərazi dairəsi hesab edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 12 iyun 2020-ci il*

## 2020-ci ilin yanvar-may aylarında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı

Muxtar respublikada 2020-ci ilin yanvar-may aylarında 1 milyard 7 milyon 285 min 500 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 0,9 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 1,5 faiz artaraq 2190 manat olmuşdur.

* * *

Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 450 milyon 876 min 500 manat dəyərində məhsul istehsal edilmişdir ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 1 faiz çoxdur.

* * *



Vəsait qoyuluşları çərçivəsində 2020-ci ilin yanvar-may aylarında muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 404 milyon 425 min 200 manat vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 1,3 faiz çoxdur. Əsas kapitala yönəldilmiş vəsaitin 384 milyon 137 min 700 manatı və ya 95 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

* * *

2020-ci ilin yanvar-may aylarında 57 milyon 105 min 700 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 3,3 faiz çoxdur. Bu dövr ərzində diri çəkidə ət istehsalı 9422 ton, süd istehsalı 36918 ton olmuşdur. 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 2,8 faiz, süd istehsalı isə 1,7 faiz artmışdır.

* * *

2020-ci ilin yanvar-may aylarında informasiya və rabitə xidmətlərinin dəyəri 21 milyon 931 min 100 manat olmuşdur ki, bu da 2019-cu ilin müvafiq dövründəki xidmətlərin dəyəri ilə müqayisədə 1,9 faiz çoxdur. Bu dövr ərzində mobil rabitə xidmətinin dəyəri 17 milyon 449 min 700 manat təşkil etmiş və bir il öncəyə nisbətdə 2 faiz artmışdır.

* * *

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmış, 2020-ci ilin yanvar-may aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 62 milyon 535 min 400 manat məbləğində kreditlər verilmişdir ki, bu da bir il öncəki göstəricidən 1,8 dəfə çoxdur. Verilmiş kreditlərin 8 milyon 413 min 300 manatı və yaxud 13,5 faizi qısamüddətli, 54 milyon 122 min 100 manatı və yaxud 86,5 faizi uzunmüddətli kreditlər olmuşdur.

* * *

Sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, yeni istehsal müəssisələrinin yaradılması nəticəsində muxtar respublikada 383 növdə məhsul istehsal olunur ki, bunun da 126 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir.

* * *

Muxtar respublikada bank sektorunun normal fəaliyyəti təmin edilmişdir.1 iyun 2020-ci il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 87692-yə çatmışdır ki, bunun da 76879-u və ya 88 faizə yaxını aktiv hesablardır. 2020-ci ilin yanvar-may aylarında açılmış 15936 bank hesabının 15926-sı aktiv hesablar olmuşdur.

Muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1 iyun 2020-ci il tarixə 1298-ə çatmışdır.

* * *

Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaratmış, 2020-ci ilin yanvar-may aylarında 155 milyon 506 min 400 ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın dəyəri 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə artaraq 128 milyon 159 min 400 ABŞ dolları təşkil etmiş, 100 milyon 812 min 400 ABŞ dolları dəyərində müsbət saldo yaranmışdır.

* * *

2020-ci ilin yanvar-aprel aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 520 manata çatdırılmışdır ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 19 faiz çoxdur.

* * *

1 may 2020-ci il tarixə muxtar respublika əhalisinin sayı bir il öncəyə nisbətdə 3303 nəfər artaraq 460 min 294 nəfər olmuşdur.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

*"İxrac ili" – 2020*

## Muxtar respublikada istehsal olunan məhsulların satış bazarları genişlənir

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 6 fevral tarixli Sərəncamı ilə 2020-ci ilin muxtar respublikamızda "İxrac ili" elan olunması yerli istehsalçılara ixrac potensialından tam yararlanmaq üçün geniş imkanlar açıb. Belə ki, ötən dövrdə bu istiqamətdə mühüm işlər görülərək muxtar respublikanın sosial-iqtisadi imkanları daha da genişləndirilmiş, iqtisadi perspektivləri nəzərə alınaraq lazımi infrastruktur yaradılmışdır. Təbii ki, bütün bunlar daxili bazarın hərtərəfli təminatında əsas rol oynamış, idxal məhsullarının həcmi dəfələrlə azalmışdır. Artıq Naxçıvanda yerli və idxal xammal əsasında işləyən çox sayda sənaye müəssisələri fəaliyyət göstərməkdədir.***




Diyarımızda uğurla davam etdirilən quruculuq işlərində və ixrac potensialında "Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətinin də payı böyükdür.

2010-cu ildə yaradılmış və tamamilə yerli xammal əsasında fəaliyyət göstərən bu müəssisə muxtar respublikanın təbii sərvətlərindən daha səmərəli istifadə etməklə travertin və mərmər emalı üzrə ixtisaslaşmışdır. Müəssisə muxtar respublikamızda həyata keçirilən genişmiqyaslı quruculuq tədbirlərində yerli tikinti materiallarına olan tələbatın ödənilməsində mühüm rol oynayır.

Qarabağlar və Çalxanqala kəndləri ərazilərindəki zəngin yataqlardan çıxarılan travertin və mərmər daşlar emal üçün bu müəssisəyə gətirilir. Məhsul buraxılışında istifadə edilən daşlar təbii olaraq antibakterial keyfiyyətə malikdir. Gündəlik istehsal gücü 2500 kvadratmetr olan müəssisədə bej, oliv, siyonid və travertin məhsulları ilə yanaşı, qara inci mərmər də istehsal edilir. Müəssisədə tam avtomatlaşdırılmış müasir texnoloji avadanlıqlar quraşdırılmışdır. Həmçinin burada əl əməyinə əsaslanan dekorasiya sahəsi də fəaliyyət göstərir. Müəssisəyə verilən hər hansı bir sifarişə uyğun travertinin üzərində oyma üsulla naxışların işlənməsi mümkündür.

Müəssisədə istehsal olunan yüksəkkeyfiyyətli məhsullar xarici bazarlara çıxarılır. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən respublikamızda və xarici ölkələrdə keçirilən biznes forumlarda müəssisə nümayəndələrinin iştirakı və beynəlxalq sərgilərdə müəssisədə istehsal olunan məhsulların nümayişi təmin edilmiş, nəticədə, məhsullar xarici şirkətlərin marağına səbəb olmuşdur. Həyata keçirilən kompleks tədbirlər, xarici bazarların araşdırılması və marketinq fəaliyyəti öz bəhrəsini vermiş, cari ilin ötən dövrü ərzində "Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətinin istehsal sahələrində hazırlanan 1555 ton travertin daş məhsulları sifarişə uyğun olaraq İqtisadiyyat Nazirliyi tərəfindən verilmiş mənşə sertifikatları əsasında Gürcüstan Respublikasına göndərilmişdir. Bu tədbirlərin davamı olaraq istehsal olunan 250 ton travertin dünən Gürcüstan Respublikasına yola salınmışdır.



"İxrac ili"ndə İqtisadiyyat Nazirliyi tərəfindən xarici ölkələrdə ixracatçılarımıza dəstək ola biləcək təşkilati tədbirlər görülmüş, yerli istehsal məhsullarından olan vafli, tütün məmulatları (siqaret), travertin, mərmər, mineral sular Gürcüstan, Türkiyə, ABŞ, İraq, Ukrayna, Əfqanıstan, Belçika Krallığı, Türkmənistan kimi ölkələrə ixrac edilmişdir. Həmin məhsulların beynəlxalq tələblərə uyğun yoxlanılmasını təmin etmək məqsədilə 52 halda mənşə sertifikatının verilməsi xarici ölkələrə məhsul ixracını asanlaşdırmışdır.

Sənaye məhsullarına ixracla bağlı geriödəmə mexanizminin tətbiq olunması da muxtar respublikada istehsal olunan məhsulların ixracının stimullaşdırılmasında mühüm rol oynayır. Qeyd edək ki, cari ilin ötən dövrü ərzində İqtisadiyyat Nazirliyinə bu istiqamətdə 11 müraciət daxil olmuş və ixrac olunmuş sənaye məhsulları üzrə 21 min manatdan çox ixrac təşviqi ödənilmişdir.

Bu gün muxtar respublikada sahibkarlara göstərilən böyük diqqət və qayğı, ixracın stimullaşdırılması sahəsində qəbul olunan qərarlar, sahibkarlığa sistemli dövlət dəstəyi muxtar respublikada istehsal olunan ixrac imkanlarını artırmış, iqtisadi əlaqələri daha da genişləndirmiş, yerli malların dünya bazarlarında daha geniş çeşiddə təmsil olunmasına şərait yaratmışdır.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***




*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2020-ci il 12 iyun tarixdə təsdiqlədiyi "Naxçıvan Muxtar Respublikasının Babək rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu"na əsasən rayonun Babək qəsəbəsinə şəhər, Cəhri və Nehrəm kəndlərinə isə qəsəbə statusları verilmişdir.*

# Müstəqilliyimizin yeni bəhrələri

## Babək qəsəbəsinə şəhər, Nehrəm və Cəhri kəndlərinə isə qəsəbə statusu verilib

1978-ci ildə ulu öndər Heydər Əliyev Naxçıvanda yeni inzibati ərazi vahidinin – Babək rayonunun təşkil edilməsi təşəbbüsü ilə çıxış edəndə hələ nəhəng imperiya mövcud idi və onun tarix səhnəsindən silinməsinə 13 il qalırdı. Amma dahi şəxsiyyət Azərbaycançılıq mövqeyindən çıxış edərək xalq qəhrəmanının adını daşıyan bir rayon təşkil etdi. Müstəqillik illərində xalqımızın böyük oğlunun bu tarixi qərarının 30 və 40 illik yubileyləri dövlət səviyyəsində qeyd olunub. Həmin illərdə rayonda geniş abadlıq-quruculuq işləri aparılıb, qəsəbə və kəndlər başdan-başa yenidən qurulub. Rayon mərkəzi olan Babək qəsəbəsinə şəhər, iki ən böyük kəndə – Nehrəm və Cəhriyə isə qəsəbə statusunun verilməsi ilə Babək rayonu ən qürurlu və əlamətdar tarixi günlərindən birini yaşadı. Bu, həmin bölgəmizdir ki, 25-30 il bundan öncə sərhəd kəndlərində müharibə gedirdi, yaxından-uzaqdan gələn eloğlular Buzqovda, Gərməçataqda düşmənlə ölüm-dirim savaşına qalxmışdı. Böyük aqrar potensialı olsa da, torpaqları ağzıgünə yatmışdı, gələcək gözü ilə baxdığımız gəncliyin taleyi təhlükə altında, sabaha olan inam yox dərəcəsində idi.

Müstəqillik illərində yaranan bu vəziyyəti dəyişmək üçün böyük əmək, zəhmət sərf olundu. Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi sabitlik, inkişaf və quruculuq strategiyasına dərin sədaqət Babək rayonunun da başdan-başa yenidən qurulmasına imkan verdi. Artıq təqvimdə elə bir il yoxdur ki, həmin vaxt rayonun hansısa yaşayış məntəqəsində tikinti, yenidənqurma işləri aparılmasın. Çəkilən böyük zəhmətin real bəhrəsi göz önündədir. Bir qəsəbə şəhər, iki kənd isə qəsəbə statusu alırsa, bu, dövlət müstəqilliyimizin, Milli Qurtuluş Gününün bəhrəsidir. Çünki ötən illərdən bəri hər üç yaşayış məntəqəsində zəruri infrastruktur yaradılıb, yeni emal və istehsal sahələri fəaliyyətə başlayıb, sosial



qayğılar uğurla öz həllini tapıb. Bir sözlə, yaşayış məntəqələrinin inzibati statuslarındakı bu yenilik zamanın doğurduğu zərurətdən meydana gəlib. Bəs bu qərar gələcəkdə rayonun iqtisadi və mədəni həyatına nə verə bilər?

İqtisad üzrə fəlsəfə doktoru, dosent Cavadxan Qasımov deyir ki, kəndi qəsəbədən, qəsəbəni isə şəhərdən fərqləndirən amillər əhalinin, emal və istehsal sahələrinin sayı, infrastruktur quruculuğunun miqyası ilə bağlıdır. Babək rayonu da bu baxımdan xüsusilə seçilir. Burada kəndin qəsəbəyə, qəsəbənin isə daha böyük status alıb şəhərə çevrilməsi üçün mövcud perspektivdən səmərəli istifadə olunub, şəhərləşmə siyasəti baxımından güclü baza formalaşdırılıb. Bu gün Babək şəhərində yeni bazar kompleksi inşa olunur, ötən illərdə Ali Məclis Sədrinin iştirakı ilə məscid binası yenidən qurulub, çoxmərtəbəli yaşayış binası tikilib, bütün dövlət qurumları üçün müasir iş şəraiti yaradılıb, ən əsası sənaye sahələrinin inkişafı diqqətdə saxlanılıb və beləliklə, əhalinin məşğulluğu təmin olunub, məskunlaşma artıb. Bütün bunlar Babək qəsəbəsinə şəhər adının verilməsi zərurətini meydana çıxarıb. Bu qərar gələcəkdə şəhər infrastrukturunun bir daha yenilənməsi üçün mühüm əsasdır.

Yeni qanunla Nehrəm və Cəhriyə isə qəsəbə statusu verilib. Deyə bilərəm ki, hər iki yaşayış məntəqəsində muxtar respublika iqtisadiyyatına mühüm töhfə verən istehsal sahələri mövcuddur. Müstəqillik illərində bu yerlərdə dövlət və özəl investisiya hesabına böyük bir sahibkar ordusu formalaşıb. Bu yaşayış məntəqələrinin aqrar potensialından, mövcud xammalından məqsədli və səmərəli şəkildə istifadə olunub. Məsələnin iqtisadi tərəfi budur ki, kənddə yalnız kənd təsərrüfatı məhsullarının istehsalı imkanı var. Onun qəsəbəyə çevrilməsi isə sənaye potensialını artırır, sahibkarların, torpaq mülkiyyətçilərinin, ailə təsərrüfatçılarının fəaliyyət imkanları genişlənir.

"Haqqında bəhs etdiyimiz qanunun xalqımızın ümummilli lideri Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışı – Milli Qurtuluş Günü ərəfəsində təsdiqlənməsi rayon ictimaiyyəti üçün daha əlamətdardır", – deyən Babək şəhər sakini Ənvər Hüseynov bildirir ki, 1978-ci ildə Babək rayonu təşkil olunanda mərkəz hesab olunan Babək qəsəbəsi Təzəkənd kimi tanınırdı. Yadımdadır, ötən əsrin 70-ci illərində burada 1 tam orta məktəb və bir neçə dövlət qurumunun binasından başqa heç bir tikili yox idi. Hətta bəzən 3-4 təşkilat bir binaya sığınmalı olurdu. Baxın, indi həmin Təzəkənd əvvəl qəsəbəyə, sonra isə şəhərə çevrildi. Mərhələli yenilik göstərir ki, müstəqillik illərində rayonun mədəni və inzibati mərkəzi hesab olunan Babək şəhərində böyük işlər görülüb. Sovetlər Birliyi dönəmində uşaqlarımız üçün bircə bağça tikilsin deyə, günlərlə aid qurumların qapısının ağzında növbəyə dururduq, amma səsimizə səs verən tapılmırdı. İndi dövlətimizin uğurlu inkişaf strategiyası, nəinki bağça, universitet korpusunu xatırladan iki orta məktəb, idman obyektləri, boy-boya sıralanmış yaraşıqlı inzibati və yaşayış binaları, açılan yeni iş yerləri, artan əhali sayı ata-baba yurdumuzu şəhərə çevirdi. Şeirlərimin birində yazmışdım ki, səndən qoxusu gəlir şəhərin, Babək. Bu gün şairin arzusu reallığa çevrilib. Şəhər adın mübarək, Babək!..



Bir kənddə üç məktəb, bir uşaq musiqi məktəbi, insanların asudə vaxtının səmərəli təşkili üçün park və muzey, xəstəxana, rahat yol şəbəkəsi, su-kanalizasiya sisteminin yenilənməsi işləri, 230 nəfərdən çox işçinin çalışdığı iri üzümçülük təsərrüfatı, eləcə də saysız-hesabsız ailə təsərrüfatları fəaliyyət göstərirsə, bu yer qəsəbə adını daşımağa layiqdir. Bu qəsəbənin adı Nehrəmdir.

İllərdir, Naxçıvanda inkişaf və müasirlik kənddən şəhərə doğru aparıldığı üçün Cəhridə də zəruri infrastruktur yaradılıb. XIX əsrdə tikilmiş və tamamilə yararsız hala düşən xəstəxana binası dövlət qayğısı ilə yenidən qurulub. Daha cəhrili uşaqlar valideynləri, ata-babaları kimi, oxumaq, təhsil almaq üçün kəndbəkənd gəzmirlər. Hələ üstəgəl, musiqi məktəbində gələcəyin peşəkar musiqiçisi kimi yetişirlər. Bu qəsəbədə tütünçülük kimi gəlirli sahə inkişaf etdirilir, hətta tütünün qəbulu üçün böyük bir məntəqə də fəaliyyət göstərir. Hər il dövlətdən maliyyə dəstəyi alanlar yeni təsərrüfatlar, sahibkarlıq subyektləri qurur, onlarla insanı da iş, çörək sahibi edirlər.

*Daniel Defonun "Robinzon Kruzo" romanında tənha adaya düşən insanın təbiət qüvvələrinə qarşı mübarizə əzmi, iradə möhkəmliyi, dözümlülüyü, yaradıcı əməyi təsvir edilir. O, adada 28 il yaşayır və sonda oradan xilas olmağın yollarını tapır. Fikrimcə, Naxçıvanın son 30 ildə blokada şəraitində yaşamasına baxmayaraq, iqtisadi gücünə güc qata bilməsi, ordu, ərzaq və enerji təhlükəsizliyini tam təmin etməsi, şəhər, qəsəbə və kəndlərinin başdan-başa abadlaşması da böyük bir iradənin, qətiyyətin, insan əməyinin, dünya boyda Naxçıvan sevgisinin real nümunəsidir. Bu nümunənin tərkibində cənnətə dönən Babək şəhəri, Nehrəm və Cəhri qəsəbələri də var. Adınız, statusunuz mübarək olsun, doğma yurdum, el-obam!..*

**Muxtar RZAZADƏ,**
**"Şərqin səhəri" qəzetinin redaktoru**

*Ailə təsərrüfatlarımız*

# Ana torpağa rəngarəng naxışlar çəkən bağban

***İmamverdi Məmmədov Şərur rayonunun Muğancıq-Müslüm kəndində yaşayır. Bu zəhmət adamı 60 yaşı haqlasa da, əlinin zəhmətini, alnının tərini torpaqdan əsirgəyə bilmir. O, ana torpağa vurduğu naxışların – əkdiyi ağacların, səliqə ilə çəkdiyi kərdi-külədə üzə gülən bol vitaminli tərəvəzlərin bəhrini-barını gördükcə bu işdən daha da zövq alır.***

Yaxın günlərdə yolumuz həmin kəndə düşmüşkən elə onunla da həmsöhbət olmaq qərarına gəldik. İmamverdi Məmmədovla həyətyanı sahəsinə daxil olmamış, yolun kənarında becərdiyi ağacların "nazını çəkərkən" rastlaşırıq. Bir az söhbətdən sonra bizi evinə dəvət edən ailə təsərrüfatı başçısının həyət qapısından içəri keçirəm. Sağ tərəfdə nar, alça, ərik, armud, alma, şaftalı ağacları, həmin ağacların, tinglərin ara-bərəsində əkilmiş ilmə, naxıştək gözoxşayan qızılgüllər, sol tərəfdə isə bir-birindən gözəl al-əlvan çiçəklər... Sanki cənnətin qapısından içəri doğru addımlayırsan. Gül-çiçəklər yar-yaraşığı, həyəti bürüyən xoş ətriylə ətrafa bir təravət, bir dinclik saçır, sanki.

Bir baxışla İmamverdi Məmmədovun həyət-bacasına nəzər yetirmək, burada əkib-becərən meyvə ağaclarının hamısına tamaşa etmək, sözün düzü, insandan çox da vaxt tələb etmir. Amma bu həyətdə uzun illərdən bəri çəkilən əməyi, sərf edilən vaxtı təsəvvürə gətirəndə, sözün yaxşı mənasında, adamı heyrət bürüyür. İmamverdi dayı ilə həyətin aşağı tərəfindəki hovuzun yanında açılan çay süfrəsi ətrafında söhbət edirik. O, süfrədəki alma, alça, ərik, gilas, bir sözlə, mövsümün ən dadlı, ən faydalı meyvələrini göstərərək deyir: – Nuş elə, qızım, hamısı öz həyətimdəndir. Həyətdə nə qədər meyvə ağacı olduğunu soruşuram zəhmətsevər bağbandan. Öyrənirəm ki, sən demə, biz həyətdə gördüyümüz meyvə ağacları bu zəhmət adamının ərsəyə gətirdiyi ağacların yalnız bir hissəsidir. O, 4 min kvadratmetr pay torpaq sahəsinin bir hissəsində növbənöv ağaclar əkib-becərir. Həmin ağac-



lardan topladığı məhsulları isə oğlu Bəhman Məmmədov Naxçıvan şəhərində təşkil olunan yarmarkaya çıxarır. Təsərrüfat başçısı pay torpağında yalnız meyvəçiliklə məşğul olmur. O həm də bu bərəkətli torpağın 1500 kvadratmetr ərazisində istixana yaradıb. Həmin istixanada pomidor, xiyar, badımcan, bibər, bir sözlə, müxtəlif tərəvəzlər yetişdirir və muxtar respublikanın bir sıra ticarət obyektlərini ilboyu belə məhsullarla təmin edir. Deyir ki, həmin sahədə daha yeni bir istixananın qurulmasına başlanılıb. İstər istixanaların, istərsə də, ətraf sahədə salınan meyvə bağının suya olan tələbatı isə yaxınlıqda yerləşən artezian quyusu vasitəsilə ödənilir.

Əl zəhməti, alın təriylə ərsəyə gələn bu bol nemətli bağ-bağatı seyr etdikcə məni bir sual maraqlandırır: "Necə olub ki, İmamverdi Məmmədov mehr-məhəbbətini torpağa salıb, özünə peşə kimi bağban olmağı seçib?"

– Özümü dərk edəndən qonşu Mahmudkənddə Hüseyn baba haqqında o qədər xoş sözlər eşitmişdim ki... Hamı Hüseyn babanın nəsli kəsilməkdə olan nalbənd ağacını mahal-mahal əkib, tükənməsinə imkan verməməsindən danışırdı. Elə indinin özündə də nəinki rayonumuzda, hətta muxtar respublikamızın digər bölgələrində də onun yadigarlarına – nalbənd ağaclarına rast gəlmək mümkündür. Elə mən də uşaq yaşlarımdan Hüseyn babanın yolunu davam etdirməyi arzulamışam. Qəlbimdə ağac əkmək, çiçək yetişdirmək, bağ salmaq, əkin-biçinlə məşğul olmaq həvəsi yaranıb. Təbiətə qarşı laqeyd olanlara, ağaclara balta çalanlara təəssüf hissi ilə yanaşmışam. Hər zaman düşünmüşəm ki, təbiətin bizə bəxş etdiyi ağaclar, otlar, çiçəklər də insanlar kimidir. Təbiətə füsunkar gözəlliyi bəxş edən onlar deyilmi?

Bu zəhmət adamı əkdiyi ağaclara, calaq etdiyi tinglərə, yetişdirdiyi gül-çiçəklərə əllərinin və qəlbinin hərarətini verir. Günəş doğanda sevinir, külək əsəndə narahatçılıq keçirir. Hər ağaca, hər tingə, hər gül-çiçəyə fərdi yanaşır, onun suvarılmasını və becərilməsini, zərərvericilərə və xəstəliklərə qarşı mübarizəsini vaxtlı-vaxtında aparır. Söz düşəndə deyir: – Bağbanlıqda vurğunluq azdır. Gərək həm də bu peşənin zərgəri olasan. Torpaq da, yaşıllıq da səhlənkarlığı sevmir.

...Artıq yol almaq vaxtıdır. İmamverdi dayı ilə sağollaşıb, Şərurda salınan, yenidən qurulan parklarla bağlı yazı hazırlamaq üçün rayon mərkəzinə üz tuturuq. Bu zəhmət adamının həyətindən ayrılarkən qapının çıxışında ayaq saxlayıb, həyətə bir daha göz gəzdirirəm. Meyvə ağaclarının budaqlarının ahəstə tərpənişindən, tinglərin körpə yarpaqlarının titrəyişindən yaranan avazı eşidir, gülçiçəyin xoş ətrini duyuram. Bu səs, bu təravət incə duyğulara çevrilib ürəyə süzülür, sanki. Bəlkə də, elə bu xoş duyğularla İmamverdi dayı kimi zəhmətsevər insanların biləyinə qüvvət verən, torpağa sevgisini gücləndirən...

Daha bir ailə təsərrüfatı başçısı ilə görüşümdən son olaraq belə nəticəyə gəlirəm ki, kəndlinin təsərrüfat qurması, firavan yaşaması üçün təminat yüksək səviyyədədir. Deməli, insan zəhməti ilə dövlət dəstəyi birləşəndə yaxşı nəticələr əldə etmək olur. Buna görə də İmamverdi Məmmədov kimi digər ailə təsərrüfatçıları da yaradılan imkanlardan ruhlanır, yorulmaq bilmədən əkib-becərir, daxili bazarda məhsul bolluğu yaratmağa çalışırlar.

**Gülcamal TAHİROVA**

***Bu gün muxtar respublikada təhsil sahəsində aparılan uğurlu islahatlar, təhsilin diqqət və qayğı ilə əhatə olunması bu sahənin gündən-günə daha da inkişafına və gələcəyimiz olan uşaqların istedadlı, bilikli və vətənpərvər gənclər kimi yetişməsinə ən layiqli töhfəsini verməkdədir.***

*Təhsil millətin gələcəyidir*

# Təhsilə göstərilən dövlət qayğısı şagirdlərin uğurlarının artmasına geniş imkanlar açır

İllərdir ki, istedadı və yaradıcı təfəkkürü ilə seçilən şagirdləri aşkar etmək, onların bilik və bacarıqlarını möhkəmlətmək üçün bu istiqamətdə müxtəlif tədbirlərin həyata keçirilməsi bunun bariz ifadəsidir. Xüsusi istedadlı uşaqların üzə çıxarılması, şagirdlərdə fənlərə marağın artırılması, onların öz bilik və bacarıqlarını nümayiş etdirmələrinə imkan yaradılması məqsədilə olimpiadaların təşkil edilməsi isə məktəblilər arasında sağlam bilik rəqabəti və bunun sayəsində daha da yüksək nailiyyətlərin əldə olunması ilə nəticələnir.

Hər il olduğu kimi, bu il də fənn olimpiadalarında məktəblilərimiz yüksək nailiyyətlər əldə etdilər. Bu il respublika fənn olimpiadalarında muxtar respublika məktəbliləri 4 qızıl, 7 gümüş, 13 bürünc olmaqla, 24 medal qazanıblar. Bu isə təhsil sahəsində uğurlarımızın ildən-ilə daha da yüksəldiyinin göstəricisidir.

2019-2020-ci tədris ili ərzində keçirilən respublika fənn olimpiadalarında uğurları ilə seçilən və qızıl medala layiq görülən məktəblilərimizi tanıyaq:



***Siyavuş Bağırov*** 2003-cü il avqustun 23-də Naxçıvan şəhərində anadan olub. O, 2009-cu ildə Naxçıvan şəhər Əkbər Ağayev adına 8 nömrəli tam orta məktəbin I sinfinə qəbul edilib. Həmin məktəbin XI sinfini başa vuran Siyavuş təhsil aldığı müddətdə dəfələrlə müxtəlif müsabiqələrdə iştirak edərək qatıldığı hər müsabiqədən qalib ayrılıb. IX sinfi fərqlənmə attestatı ilə bitirən Siyavuşun adı Ali Məclis Sədrinin 2019-cu il 24 iyun tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na salınıb, Ali Məclis Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülüb.

O, ilk dəfə VIII sinifdə oxuyarkən olimpiadaya qatılıb, riyaziyyat fənni üzrə I yerə layiq görülüb, X-XI siniflərdə muxtar respublika fənn olimpiadasında tarix fənni üzrə iki dəfə I, respublika fənn olimpiadasında isə tarix fənni üzrə ilk dəfə gümüş, ikinci dəfə isə qızıl medal qazanıb.

"Xəmsə" və "Nuh yurdu" intellektual oyunlarında dəfələrlə iştirak edib, məktəb kollektivi ilə iki dəfə muxtar respublika, bir neçə dəfə isə şəhər çempionu olub. 3 il davamlı olaraq muxtar respublikanı Bakıda "Xəmsə" yarışında təmsil edib, iştirak etdiyi komanda 2019-cu ilin dekabr ayında Azərbaycandakı 100-dən çox komanda arasında "İlin ən yaxşı klubu" adına layiq görülüb.

Muxtar respublikada yeniyetmələr arasında ilk dəfə keçirilən "Breyn-Rinq" intellektual oyununda I yerə çıxaraq muxtar respublika çempionu adını alıb.

İlk dəfə öz sinif yoldaşı Araz Qulusoyla birlikdə "Sabahın alimləri" IX Respublika müsabiqəsində muxtar respublikanı təmsil edib, hazırladıqları layihə Elmi Ekspertiza Komitəsi tərəfindən III yerə layiq görülüb.

2014-cü ilin may ayında ümummilli lider Heydər Əliyevin anadan olmasının 91 illiyinə həsr edilmiş "Naxçıvan Open" şahmat festivalında ikinci yerə sahib olub.



***Həsən Cahangirli***nin də uğurları qürurvericidir. 2003-cü il iyunun 24-də Naxçıvan şəhərində anadan olan Həsən 2009-cu il Naxçıvan şəhər Cəmşid Naxçıvanski adına 11 nömrəli tam orta məktəbin I sinfinə qəbul edilib, bu il isə həmin məktəbin məzunudur.

Öz həmyaşıdları arasında dəqiq elmlərə olan marağı, bilik və bacarığı ilə hər zaman fərqlənib, bir çox bilik yarışlarında, intellektual oyunlarda da oxuduğu məktəbi yüksək səviyyədə təmsil edib.

Riyaziyyat fənni ilə bağlı muxtar respublikada keçirilən bilik yarışlarında, fənn olimpiadalarında dəfələrlə yer qazanıb, diplomlarla təltif olunub, 2017-ci ilin fevral ayında keçirilən muxtar respublika fənn olimpiadasında fizika fənni üzrə VIII sinif şagirdləri arasında II yerə layiq görülüb. Elə həmin ilin dekabr ayında Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən keçirilən məktəblilərin fənn olimpiadasında riyaziyyat fənni üzrə IX sinif şagirdləri arasında II yerə, 2019-cu ildə X sinif şagirdləri arasında riyaziyyat fənni üzrə III yerə, növbəti muxtar respublika fənn olimpiadasında riyaziyyat fənni üzrə isə XI sinif şagirdləri arasında I yerə layiq görülüb, diploma təltif olunub.

2020-ci ilin iyun ayında keçirilən respublika fənn olimpiadasının final mərhələsində uğurla iştirak edən Həsən riyaziyyat fənni üzrə I yerin qalibi kimi qızıl medala layiq görülüb.

O həm də dəfələrlə şahmat üzrə Naxçıvan şəhər birinciliyində iştirak edib, I və II yerlərə layiq görülərək diplomlarla təltif olunub.

2019-cu il Naxçıvan Muxtar Respublikası Gənclər Fondu tərəfindən muxtar respublikanın IX-XI sinif şagirdləri arasında keçirilən "İnteqrasiya" inteqrativ-intellektual oyunu üzrə "Muxtariyyət kuboku" uğrunda yarışda III yerə, elə həmin ilin dekabr ayında "Muxtariyyət kuboku" uğrunda Naxçıvan şəhər məktəbliləri arasında keçirilən seçimdə I yerə, 2020-ci ilin fevral ayında Naxçıvan şəhərində yeniyetmələr arasında keçirilən intellektual oyunlar olimpiadasının şəhər birinciliyində isə "Poliqon" strateji intellektual oyunu üzrə III yerə layiq görülüb.



***Nəriman Həsənov*** 2003-cü il fevralın 27-də Ordubad rayonunda anadan olub. 2009-cu ildə rayonun Nüsnüs kənd tam orta məktəbinə qəbul edilib, bu il isə həmin məktəbdən məzun olub. Bu günə kimi istər məktəbdaxili, istərsə də məktəblərarası bilik yarışlarında fəal iştirakı ilə seçilib, keçirilən sınaq imtahanlarında hər zaman yüksək nəticələr əldə edib, muxtar respublika fənn olimpiadalarında biologiya fənni üzrə bütün mərhələlərdə birinciliyə sahib olub. İstedadlı yeniyetmə ötən il rayonda keçirilən məktəblərarası "Xəmsə" yarışında iştirak etdiyi komanda ilə birlikdə I yeri qazanıb.

Respublika fənn olimpiadasında biologiya fənni üzrə yarımfinal və final turlarında I yerin qalibi olaraq qızıl medala layiq görülüb.



***Nicat Əlizadə*** 2005-ci il mayın 24-də Sədərək rayonunun Sədərək kəndində anadan olub. 2011-ci ildə rayonun Heydərabad qəsəbə tam orta məktəbinin I sinfinə qəbul edilib, 2017-ci ildə Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyə qəbul imtahanında yüksək nəticə göstərib, VII sinifdən təhsilini liseydə davam etdirib və artıq həmin liseyin IX sinfini bitirib.

İstər Heydərabad qəsəbə tam orta məktəbində, istərsə də Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseydə hər zaman öz nailiyyətləri ilə seçilib, liseyin VII sinfində təhsil alarkən muxtar respublika sınaq imtahanlarında 670 balla II yerə, 2018-ci ildə keçirilən sınaq imtahanlarında isə 674 balla II yerə layiq görülüb. 2019-cu ildə isə muxtar respublika fənn olimpiadasında II yeri tutaraq diplomla təltif edilib. Ötən tədris ili ilk dəfə keçirilən Beynəlxalq riyaziyyat olimpiadasında II, respublika fənn olimpiadasının riyaziyyat fənni üzrə final turunda isə I yerin qalibi olub. Bundan başqa, başa vurduğumuz tədris ili ərzində keçirilən IX sinif üzrə buraxılış imtahanında da yüksək nəticə qazanıb.

Bütün bunlar şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün yaradılan əlverişli şəraitin və ümumiyyətlə, muxtar respublikada təhsilin inkişafına göstərilən dövlət qayğısının bariz nümunəsidir.

*Qarşıda məzunları qəbul imtahanları gözləyir. İnanırıq ki, bütün bu nailiyyətlərin nəticəsi olaraq bu günün qızıl medal mükafatçıları qəbul imtahanlarında da yüksək nəticələri ilə birinci olacaq, dövlətə, millətə layiqli vətəndaş kimi formalaşacaqlar.*

**Ülviyyə HACIYEVA**



*20 iyun Qaz Təsərrüfatı İşçilərinin Peşə Bayramı Günüdür*

# Muxtar respublikada istehlakçılar dayanıqlı mavi yanacaqla təmin olunur

***Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 12 iyun tarixli Sərəncamına əsasən hər il iyunun 20-si Qaz Təsərrüfatı İşçilərinin Peşə Bayramı Günü kimi qeyd olunur.***

Ulu öndər Heydər Əliyev ötən əsrin 70-ci illərindən başlayaraq ölkəmizdə enerji təhlükəsizliyinin təmin edilməsi sahəsində mühüm qərarlar qəbul etmiş, yaşayış məntəqələrinin qazlaşdırılması istiqamətində kompleks tədbirlər görülmüşdür. 1980-ci ildə Naxçıvan Muxtar Respublikasına yüksəktəzyiqli qaz xətti çəkilmiş, yaşayış məntəqələrinin 52 faizi mavi yanacaqla təmin edilmişdir. Lakin ötən əsrin 90-cı illərində Ermənistanın işğalçılıq siyasəti nəticəsində muxtar respublika blokada vəziyyətinə düşmüş, bütün kommunikasiya xətləri kəsilmiş, o cümlədən qazın ötürülməsi dayandırılmışdı. Uzun fasilədən sonra 2005-ci ildə Naxçıvan Muxtar Respublikasına təbii qazın verilməsi bərpa edilmiş və yaşayış məntəqələri tam qazlaşdırılmışdır. Hazırda muxtar respublikada 90 min 426 təbii qaz istehlakçısı vardır ki, bunlardan 87 min 727-si əhali abonenti, 2699-u isə qeyri-əhali abonentdir.

Muxtar respublikada qaz təsərrüfatının inkişafı daim diqqətdə saxlanılır. Bu istiqamətdə həyata keçirilən tədbirlərin tərkib hissəsi olaraq 2013-cü ildə 27 kilometr uzunluğunda Naxçıvan-Şahbuz ortatəzyiqli qaz xətti istifadəyə verilmişdir. Bundan başqa, uzunluğu 81,6 kilometr olan Naxçıvan-Sədərək magistral qaz kəməri izolyasiyalı borularla yenidən çəkilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvan Muxtar Respublikasının enerji təhlükəsizliyi sahəsində görülən işləri yüksək qiymətləndirərək demişdir: ***"Naxçıvanda enerji təhlükəsizliyi məsələləri öz həllini tam şəkildə tapıbdır. Bu da çox sevindirici haldır. Bu gün Naxçıvan 100 faiz səviyyəsində qazlaşdırılıbdır. Bütün yaşayış məntəqələrində təbii qaz vardır".***

Naxçıvan Muxtar Respublikasında təbii qaz təchizatının yaxşılaşdırılması və etibarlılığının artırılması istiqamətində ardıcıl tədbirlər görülür. İstehlakçıların fasiləsiz və təhlükəsiz mavi yanacaqla təminatını diqqət mərkəzində saxlayan birliyin kollektivi qarşıda duran vəzifələri uğurla yerinə yetirir. Muxtar respublikada həyata keçirilən genişmiqyaslı tikinti-quruculuq işləri ilə əlaqədar müvafiq sosial obyektlərin, inzibati binaların qaz təchizatı yenidən qurulur. Təbii qazdan səmərəli istifadəni təmin etmək məqsədilə təzyiqin normalara uyğun saxlanılması üzrə gündüz və gecə texnoloji rejimləri yaradılmış, sərfiyyat qeydiyyatının aparılması ciddi nəzarətə götürülmüşdür.

Muxtar respublikada qaz təsərrüfatında infrastrukturun təkmilləşdirilməsi məsələləri də daim diqqət mərkəzində saxlanılır. Bu tədbirlər çərçivəsində aşağıtəzyiqli qazdan istifadə edən istehlak obyektlərində smartkarttipli elektron qaz sayğaclarının quraşdırılması davam etdirilir. Bu günə qədər Naxçıvan şəhərində 20 min 230 smartkarttipli elektron qaz sayğacı quraşdırılmışdır. Bu istiqamətdə işlər davam etdirilir. Muxtar respublikada təbii qaz istehlakçıları tərəfindən istifadə olunan və qaz təsərrüfatında istismarda olan nəzarət-ölçü cihazlarının yoxlanma və kalibr edilməsi laboratoriyası da fəaliyyət göstərir. Bu laboratoriya qazpaylayıcı stansiyalarda müvafiq işlərin, nəzarət-ölçü cihazlarının və texnoloji avadanlıqların kalibrlənməsini, onların kalibrlənmə prosedurlarını, həmçinin digər normativ-texniki sənədlərin tələblərinə uyğun aparılmasını təmin edir.

Kadr potensialının artırılması, qaz istismar sahəsində çalışanların ixtisas dərəcəsi və peşəkarlıq səviyyəsinin yüksəldilməsi vacib məsələdir. 2016-cı il tarixdən başlayaraq Naxçıvan Regional Peşə Tədris Mərkəzində Qaz avadanlıqlarının istismarı və təmiri üzrə çilingər peşəsinin ixtisasartırma kursu fəaliyyətə başlamışdır. Qaz təsərrüfatında, xüsusilə qaza xidmətində çalışanların peşəkarlıq səviyyəsini artırmaq məqsədilə şəhər, rayon qaz istismar idarələrinin işçiləri müntəzəm qaydada kurslara cəlb olunmuşdur. Kursu bitirən müdavimlərə müvafiq qaydada sertifikatlar təqdim edilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə Naxçıvan Dövlət Texniki Kolleci üzrə İstilik təchizatları və istilik texnikası avadanlıqları ixtisası Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətinə hamiliyə verilmişdir. Hamiliyə verilən müvafiq ixtisas üzrə tələbələrin tədrisinə kömək etmək məqsədilə Kollecdə Qaz təchizatı avadanlıqlarının kabinəsi yaradılmış, kabinə qaz təsərrüfatında istifadə olunan müxtəlif avadanlıqlarla təchiz edilmişdir.

Naxçıvan Muxtar Respublikasına təbii qazın verilməsi enerji təhlükəsizliyinin təmin olunmasına, ətraf mühitin qorunmasına da mühüm töhfə verir. Belə ki, muxtar respublikanın təbii qazla davamlı və keyfiyyətli təminatı təbiətin qorunmasında və ekosistemin zənginləşdirilməsində əhəmiyyətli rola malikdir.

Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidməti Naxçıvan-Sədərək yüksəktəzyiqli magistral qaz kəmərində qış mövsümündə təzyiqin artırılması məqsədilə Naxçıvan şəhər qazpaylayıcı stansiyasında yeni qaz kompressor stansiyasının qurulması üçün üçtərəfli müqavilə imzalamışdır və bu ilin sonunadək quraşdırılması nəzərdə tutulur. Təbii qaz təchizatının etibarlılığını və səmərəliliyini artırmaq üçün Naxçıvan-Sədərək yüksəktəzyiqli magistral qaz kəmərinin üzərindəki kran meydançasından, "Naxçıvan Qaz Turbin-Sement Zavod" qazpaylayıcı stansiyasına izolyasiya olunmuş polad borularla yüksəktəzyiqli yeraltı ötürücü yeni qaz kəməri çəkilmişdir. İstehlakçılara verilən təbii qazın dayanıqlı olması üçün istismarda olan təzyiq və qaztənzimləyicilərin, daşıyıcı, paylayıcı qaz kəmərlərinin, nəzarət-ölçü cihazlarının və digər texnoloji avadanlıqların yenilənməsi istiqamətində işlər nəzarətdə saxlanılır. Xidmətin qazpaylayıcı stansiyalarında Elster sənaye elektron qaz sayğacları üçün qaz nəqli proseslərinin uzaq məsafədən idarə edilməsi və operativ nəzarəti üzrə informasiya-ölçü qeydiyyat sistemi yaradılmışdır. Naxçıvan şəhəri üzrə dairəvi yeraltı ortatəzyiqli paylayıcı qaz kəməri üzərində korroziyaya qarşı mühafizə üçün Katod mühafizə avadanlığı quraşdırılmışdır.

Təbii qazdan təhlükəsiz və səmərəli istifadə olunması məqsədilə abonentlərin maarifləndirilməsinə xüsusi diqqət yetirilir, baş verə biləcək bədbəxt hadisələrin qarşısının alınması üçün mütəmadi olaraq iş aparılır. Təbii qazdan qanunsuz istifadəyə qarşı mübarizə tədbirləri həm sakinlərin təhlükəsiz yaşayışının, həm də fasiləsiz enerji təchizatının təmin olunması baxımından mühüm əhəmiyyət daşıyır. Təbii qazdan səmərəli istifadə edilməsi və qaz sayğaclarına müdaxilələrin aradan qaldırılması məqsədilə hüquq-mühafizə orqanları ilə birlikdə reydlər keçirilir.

*Qaz təsərrüfatı işçiləri yaradılan şəraitdən səmərəli istifadə edərək bundan sonra da muxtar respublikada enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə öz töhfəsini verəcək, abonentlərin təbii qazla fasiləsiz təminatı üçün səylə çalışacaqlar.*

***Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidməti***

# Rənglərin su ilə rəqsindən yaranan sənət: ebru

***Bu günə kimi dünyada mövcud olan fərqli, müxtəlif incəsənət növlərinin bəziləri unudulmuş, bəziləri dəyişilmiş, bəziləri isə öz ömrünü yaşamaqda, insanların zövqünü oxşamaqdadır.***



Haqqında söz açacağımız ebru sənətinin də əvvəlcə unudulduğunu, sonra isə yenidən yaşadılmağa başladığını deyə bilərik. Bu sənət növü hazırda muxtar respublikamızda maraqdoğuran sahələrdən birinə çevrilib. Diyarımızda istedadlı uşaqların əl işlərindən ibarət sənət nümunələrinin kataloqu ilə tanış olarkən ön səhifələrdə yer alan bu sənət nümunələri çox füsunkar görünüşü ilə marağıma səbəb oldu. Gözəl əl işlərilə kataloqun bəzəyi olan bu nümunələri yaradan Zəhra Xəlilovanı tanımaq və sizə də tanıtmaq istədim. Elə bu səbəbdən bu istedadlı balamızın Ebru sənətinə yiyələndiyi Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinə yollandım. Ebru sənəti dərnəyinin rəhbəri Ramilə Bağırovaya gəlişimin səbəbini söylədim və bu sənət növü həm də Zəhranın yaradıcılıq istedadı ilə bağlı öyrənmək istədiyim sualları ona ünvanladım. Müsahibimin dediklərindən:

– Ebru çox maraqlı və zövqlü sənət hesab edilir. İlk olaraq qeyd edək ki, burada tamamilə təbii materiallardan istifadə olunur. Rəsm qatılaşdırılmış su üzərində çəkilir. Boyalar göyqurşağı kimi bir-birinə qarışmır və onun yapışqanlıq xüsusiyyətini təmin edir. Qatılaşdırılmış su "gəvən" adlanan təbii tikan otunun köməyi ilə alınır. Gəvən kolunun gövdəsində nişastaya oxşayan maddə var ki, ondan istifadə etməklə su qatılaşdırıldıqda boyalar suyun üzərinə dağılmır. Suyun hazırlanmasında həm də yosundan, heyvanın toxumlarından istifadə olunur. Rəsmi çəkən zaman suyun üstünə toz qonmamasına diqqət etmək lazımdır. Bu zaman suyun üzərinə tökülən boyaları fırça ilə lazımi formaya salmaq çətinləşir və rəsmin keyfiyyəti itir. Su üzərində rəsm çəkmək yalnız soyuq hava şəraitində mümkündür. Çünki ebrunun üzərində çəkiləcəyi su ılıq olduqda rənglər səth üzərində bir-birinə qarışır.





Müsahibimin sözlərinə görə, ebrunun boyaları, əsasən, torpaqdan hazırlanır. Onun tərkibinə inəyin ödü qatılır ki, boya həm incəlsin, həm də suyun üzərində açılsın. Su üzərindəki boyalara müxtəlif forma verən fırça isə at tükündən əldə edilir. Fırçanın gövdəsi isə müxtəlif güllərin budaqlarından hazırlanır. Bu sənətlə məşğulsansa, gərək çox diqqətcil və dəqiq olasan, çünki çox güclü sənətkar olsan belə, sənin bir sıxıntın, emosiyaların varsa, bu, mütləq suya təsir edir. Ani bir hərəkət, hətta suyun rənglərini belə, dəyişir. Ebru bunları qəbul etmir, pozitiv, müsbət duyğularla həmahəngdir. Sənətin özünəməxsus cəhəti də elə budur.

Öyrəndik ki, 2019-cu ilin oktyabr ayında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən adıçəkilən mərkəzdə robotexnika, memarlıq-dizayn, xalçaçılıq, gimnastika kimi yeni yaradılan innovativ dərnəklər içərisində Ebru sənəti dərnəyi də yer alıb. Dövlətimizin qayğısı ilə unudulmaqda olan bu sənətin uşaqlara tədris edilməsi üçün hər cür şərait yaradılıb. Hazırda dərnəkdə 20 uşaq var. Naxçıvan Qarnizonu tam orta məktəbinin V sinif şagirdi Zəhra Xəlilova da yaradıcılıq qabiliyyəti ilə seçilənlər sırasındadır.

Ramilə Bağırova onu da qeyd etdi ki, ötən il Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda təşkil olunan ustad dərslərində iştirak edən şagirdlərin əl işlərindən ibarət "Balaca istedadlar" adlı sərgi-müsabiqə keçirilib. Sərgidə gözəlliyi və özünəməxsusluğu ilə seçilən "Şaxta baba" adlı əl işi ilə birinci yerə layiq görülən Zəhra Xəlilova Rəssamlar Birliyinin diplomu ilə təltif edilib. Mərkəzdə, Ebru sənəti dərnəyi üzvlərinin əl işlərindən ibarət təşkil edilmş "Təkrarolunmaz rənglər" adlı sərgi zamanı diplomla təltif edilən dərnək üzvlərinin arasında Zəhra da yer alıb.

Dərnək rəhbərinə Zəhra ilə yaxından tanış olmaq istədiyimi bildirdim. O, arzumu yerinə yetirdi. Balaca müsahibimin söhbətini olduğu kimi qələmə aldım:



– Naxçıvan Qarnizonu tam orta məktəbində təhsil alıram. Əl qabiliyyətimin olduğunu görən valideynlərim məni Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində Rəsm dərnəyinə yazdırdılar. Ötən il yaradılan yeni dərnəyə sinif yoldaşlarım da gedirdi. Mən də onlar işlədikcə heyranlıqla baxırdım. Rənglərin su ilə rəqsi çox xoşuma gəlirdi və bunu biranlıq maraqlı bir əyləncə, oyun oynamaq kimi düşünürdüm. Bu sənətə marağım da beləcə yarandı. Həvəsimin olduğunu görən valideynlərimin məsləhəti ilə Ebru dərnəyinə keçdim. Artıq bu sənətin sirlərini Ramilə müəllimənin köməyi ilə öyrənməkdəyəm. Ebru sənəti çətin olmasına baxmayaraq, sevərək şəkillər çəkirəm. Bu sənətlə məşğul olmağı gələcəkdə də davam etdirmək arzusundayam.

*Biz də inanırıq ki, bu istedadlı qızımız gələcəkdə yaratdığı sənət nümunələri ilə muxtar respublikamızı beynəlxalq səviyyəli yarışlarda layiqincə təmsil edəcək.*

**Türkan HÜSEYNLİ**

*Həkim məsləhəti*

## Yay aylarında uşaqları necə qoruyaq

***Yay fəsli uşaqlar arasında bəzi mövsümi xəstəliklərin yayılması dövrü hesab edilir. Xüsusən çimərliklərdə çimmək, günəş şüaları altında uzun müddət qalmaq, düzgün qidalanma rejiminə riayət etməmək uşaqların bədən bioritmini pozur. Nəticədə, uşaqlarda mövsümi xəstəliklərə yoluxma halları baş verir. Bəs övladlarımızı bu xəstəliklərdən necə qoruya bilərik?***

Bu barədə Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının baş həkiminin müalicə işləri üzrə müavini, pediatr İlkay Əliyeva ilə həmsöhbət olduq. Yay mövsümündə uşaqların sağlamlığına nəzarətin daha güclü olmasını vacib sayan həkim qeyd edir ki, bu dövrdə günvurma, günəş yanığı, mədə-bağırsaq sistemi və digər infeksiyalara, allergik və sair mövsümi xəstəliklərə daha çox rast gəlinir. İlk olaraq onu qeyd etməliyəm ki, uşağın immuniteti yüksək olarsa, o, bütün xəstəliklərə qalib gələr. Bunun üçün onların düzgün qidalanmasına, yuxu rejiminə, fiziki aktivliyinə ciddi nəzarət etmək lazımdır.



Yayda uzun müddət birbaşa günəşin təsirinə məruz qalan uşaqlarda aşağıdakı əlamətlər – şiddətli başağrısı, başdönməsi, ürəkbulanma, qusma, yüksək temperatur, halsızlıq, ağır hallarda şüur pozğunluğu müşahidə edilir. Əgər bu qeyd etdiyimiz günvurma əlamətlərinə uşaqda rast gəlinsə, valideynlər onu təcili olaraq sərin və kölgə olan bir yerə keçirməli, bədəni sıxan paltarlar çıxarılmalıdır. Huşunda pozğunluq müşahidə edilərsə, təcili tibbi yardıma xəbər edilməlidir. Təcili yardım gələnə kimi yaş əskilərlə bədəni sərin saxlamaq lazımdır. Günvurma və günəş yanığından qorunmaq üçün günəşli günlərdə papaqdan, çətirdən, günəşdən qoruyucu kremlərdən istifadə olunmalı, çoxlu maye qəbul edilməlidir. Ümumiyyətlə, yay aylarında birbaşa günəş şüalarının təsirindən (saat $12^{00}$-da $16^{00}$-dək) uzaq durmaq lazımdır.

Pediatr onu da bildirdi ki, yay mövsümündə uşaqlarda ən çox rast gəlinən xəstəliklərdən olan bağırsaq infeksiyaları onlara yaxşı bişməmiş ət, süd, yumurta və digər məhsullardan, o cümlədən çirkli su vasitəsilə keçə bilər. Belə vəziyyətlər özünü ürəkbulanma, qusma, ishal, yüksək temperatur, qarında ağrılar və digər əlamətlərlə göstərir. Qusma, ishal uşaq orqanizminin susuzlaşmasına, nəticədə, toksikoz hallarının yaranmasına gətirib çıxarır. Belə hallar yaranmasın deyə, uşağa verilən qidaları yaxşı bişirmək, meyvə-tərəvəzi bol su ilə yumaq, çoxlu maye qəbul etmək lazımdır. Həmçinin qidalanmadan öncə əllərin təmizliyinə riayət etmək lazımdır.

Valideynlərə məsləhətimiz odur ki, bir yaşından az olan körpələri yay mövsümündə əlavə qidaya keçirməsinlər. Yay mövsümündə əgər uşağın ana südü ilə bəslənməyi 6 aya çatıbsa və əlavə qidaya keçmək vaxtıdırsa, onu bir-iki ay uzatmaq lazımdır. Körpələrə ana südünü dayandırmağı sentyabrdan sonraya saxlamaq daha məsləhətlidir. Unutmaq olmaz ki, ana südü körpə üçün əvəzedilməz qida hesab olunur.

İlkay həkim qeyd etdi ki, uşaqlarda allergik xəstəliklər ilin bütün aylarında qeydə alına bilər. Lakin bəzi allergik hallar mövsümi xarakter daşıyır. Yay aylarının aktual allergik xəstəliklərinə qida, insekt yəni həşəratların dişləməsi ilə əlaqədar əmələ gələn allergik reaksiyalar və rinitlər, pollinozlar, atopik dermatitlər, günəş allergiyası, toksikoallergik reaksiyalar, allergik konyunktivitlər və sair aiddir. Bu kimi hallar yaranmasın deyə, valideynlər uşaqların sağlamlığına ciddi yanaşmalıdırlar. Əgər hər hansı bir narahatlıq müşahidə olunarsa, dərhal həkimə müraciət edilməlidir.

Müsahibim yayda uşaqlarda infeksiyaların artma səbəblərindən birinin də su hövzələrində yuyunmağın olduğunu vurğuladı. Həkimin sözlərinə görə, bağırsaq infeksiyaları və diareyaların profilaktikası üçün sanitar-gigiyena qaydalarına ciddi riayət edilməlidir. Uşaq tərbiyə müəssisələrində yeməklərin bişirilməsi və oyuncaqların təmizliyinə sanitar nəzarət, həmçinin məktəbəqədər və məktəbyaşlı uşaqlara şəxsi gigiyena qaydalarının öyrədilməsi vacibdir. Uşaqlarda orqanizm həssas olduğu üçün müxtəlif meyvələrin həddən artıq qəbulu və sərinləşdirici içkilərin aramsız olaraq içilməsi bu kimi problemlərə səbəb olur. Ona görə də qidaları sərin vəziyyətdə saxlamaq və günəş şüalarından qorumaq məsləhətdir. Yeməklərin və içkilərin hazırlanma, əlverişli şəraitdə saxlanma və istifadə mərhələlərində əsas gigiyena qaydalarına diqqət edilməsi, yuxarıda qeyd edilən riskli qidaların qəbulunun azaldılması, bayırdan alınan və ya açıq havada satılan qidalardan istifadə edilməməsi, durğun halda olan su mənbələrindən su içilməməsi də su və qidalarla keçən infeksiyalardan qorunmaqda effektiv yollardandır.

*Hər bir valideyn uşaqlarının taleyi üçün məsuliyyət daşıyır. Uşaqların sağlam şəkildə böyüməsi onların gələcək həyatında mühüm rol oynayır. Hər bir cəmiyyətin həm mənəvi, həm də fizioloji cəhətdən sağlam insanlara ehtiyacı olduğunu nəzərə alıb gələcəyimiz olan uşaqların sağlamlığına həssaslıqla yanaşmaq hər kəsin vətəndaşlıq, valideynlik borcudur. Unutmayaq ki, sağlam ruh yalnız sağlam bədəndə olar!*

**Telli MƏMMƏDOVA**

## Əmək yarmarkası keçirilib



Dünən Şahbuz rayonunda keçirilən əmək yarmarkasında işaxtaranlara 16-sı dövlət və 4-ü özəl sektor olmaqla, ümumilikdə, 20 müəssisədən 130 boş iş yeri təqdim edilib. Qeyd edək ki, əmək yarmarkasında 20 nəfərin sözügedən vakansiyalar üzrə işə göndərilməsi təmin olunub, 2 nəfərin isə özünüməşğulluq proqramına cəlb edilməsi üçün qeydiyyatı aparılıb.

Ümumilikdə isə Naxçıvan şəhəri, Babək, Ordubad, Culfa, Şahbuz, Kəngərli və Sədərək rayonlarında keçirilmiş əmək yarmarkalarında 158 müəssisədən olan vakansiyalar üzrə 173 nəfər işaxtaran vətəndaşın işə göndərilməsi təmin edilib.

Qeyd edək ki, növbəti əmək yarmarkası iyun ayının 23-də Şərur rayonunda keçiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Dezinfeksiya tədbirləri davam etdirilir



Muxtar respublikada pandemiyaya qarşı qabaqlayıcı profilaktik tədbirlərə cəlb edilən Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin şəxsi heyəti tərəfindən Ordubad və Culfa rayonlarında, ümumilikdə, 253 kilometr yol və səkilər dezinfeksiya edilib.

Qeyd edək ki, dezinfeksiya tədbirləri Culfa şəhərinin əsas yollarında, Yaycı, Əbrəqunus, Ərəzin və Kırna Kənd mərkəzlərində, eləcə də Ordubad rayonunun Unus, Kələki, Dırnıs, Anaqut, Qoruqlar, Başkənd, Vələver, Ağrı, Vənənd, Dizə və Xanağa kəndlərində həyata keçirilib.

Dezinfeksiya işlərinə Fövqəladə Hallar Nazirliyinin 4 yanğınsöndürmə avtomobili, 20 nəfər şəxsi heyəti, həmçinin 1 dezinfeksiya avtomobili cəlb edilib.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 457